Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Sovet İttifaqı Qəhrəmanı Ziya Musa oğlu Bünyadovun xatirəsinə həsr olunmuş "Müasir şərqşünaslığın aktual problemləri" ("Ziya Bünyadov qiraətləri") mövzusunda Beynəlxalq Elmi Konfransın (*16-17 oktyabr 2017-ci il, Bakı*) materialları. Bakı: Papirus NP, 2018, s. 398-407.

Səadət Şıxıyeva
filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu

Türkcə hürufilik risalələrində mənzum iqtibaslar: poetik dəyəri və üslubi özəllikləri

Giriş

Hürufilik mətnləri mənzum və ya mənsur olmasından asılı olmayaraq, bir sıra spesifik xüsusiyyətləri ilə digər orta çağ əsərlərindən seçilir. Bu mətnlərə özünəməxsusluq verən xüsusiyyətlərə hərf simvolikasından istifadənin sıxlığı və sayların çeşidli interpretasiyaları kimi iqtibaslar da aiddir. Digər orta çağ ədəbi və ya fəlsəfi əsərlərinə nisbətən hürufilik mətnlərində iqtibasların çoxluğu müşahidə olunur. İlkin hürufilik mətnlərində, adətən, həmin iqtibaslar Quran və hədislərdən alınırdı, sonrakı dövrlərdə istinadların sırasına Fəzlullahın farsca risalələri (*"Cavidannamə"*, *"Məhəbbətnamə"*) və mənzum əsərindən (*"Ərşnamə"*), həmçinin digər nüfuzlu hürufi müəlliflərin risalə, məsnəvi və divanlarından seçmələr də daxil oldu.

Mənsur hürufilik mətnlərindəki daha bir özünəməxsus ədəbi təzahür mənzum parçalardan istifadə, onların seçim prinsipi, müəllifin bu poetik parçalara qazandırdığı yeni fəlsəfi anlam yükü, həmin poetik nümunələrin risalələrdəki bədii funksiyası və s.-də üzə çıxır.

Orta çağ nəsrində mənzum parçaların yeri və funksiyası

Orta çağ İslami Şərq ədəbiyyatında mənsur mətnə şeirlə zinət verilməsi sıx müşahidə olunan ənənəvi ədəbi təzahürlərdəndir. Bu mətnlərin ədəbi, fəlsəfi və ya dini mövzularda qələmə alınması,

yaxud tarix kitabı olması müəllifin şeirə müraciətində məhdudiyyət yaratmırdı. Mətnlərə mövzuya uyğun beytlər, yaxud səcli cümlələrlə poetik bəzək vuran müəlliflər, söylənilən düşüncənin daha asan qavranılmasına şərait yaradır və mətni eynitiplilikdən qorumaq niyyətini izləyirdilər. Bu mətnlərdə lirik ruhiyyəli parça, adətən, söylənilən fikrin yekunu, bəzən hətta dəlili xarakterinə malik olurdu.

Orta çağ nəsri mənzum mətnlərdən fərqli olaraq, eynitipli olmayıb, əsasən, iki üslubun (nəsr və nəzm) qovuşmasından yaranan sinkretizmə malik idi və bu, orta çağ nəsrini müasir nəsrdən fərqləndirən başlıca özəlliklərdəndir. Bu sinkretiklik mənsur mətnin şeir parçaları ilə bəzədilməsi, şeirin başlıca spesifikasından olan qafiyənin mənsur mətnin cümlələrinə də tətbiqi ilə yaradılırdı. Amma tanınmış tədqiqatçı Osman Horatanın da qeyd etdiyi kimi, *"mənsur mətnlərin mənzum hissələri və poetik formalarına aid xüsusiyyətlər sadəcə əsərin bədii dəyərini artırmaq üçün əsərin strukturuna yerləşdirilən poetik bəzəklər olaraq görülməməlidir. Bunlar eyni zamanda oxucuların/dinləyicilərin diqqətini hadisələrdən çəkib şeirə yönəldir və onları xəbərdar etmək və anlatmaq; oxumaq/dinləmək fəaliyyətini monotonluq və cansıxıcılıqdan qurtarma funksiyasına da malik idi"* (10, s. 35).

Adətən, mənsur hissə əsərin ümumi ideya istiqamətinə tabe olan mövzuda (fəlsəfi, didaktik və s.) olur, mənzum hissə isə iqtibasların ümumi xarakteristikasına uyğun olaraq, nəsrdə söylənilən fikrin davamı və poetik haşiyə kimi istifadə olunur. Bu mənada, tədqiqatçı R.Rzayevanın tədqiqat obyekti olan *"Munisnamə"* əsasında qeyd etdiyi kimi, həmin şeir parçaları əsərin bədii hissəsini təşkil edir (5, s. 29). Bu şeir nümunələri, bir qayda olaraq, *"beyt"* və ya *"şeir"* sözləri ilə mənsur mətndən fərqləndirilir və çox zaman tanınmış şairlərin şah beyt və ya aforizm xarakterli beytlərinə müraciət edilirdi. Tədqiqatçı K.Həvilqızının da qeyd etdiyi kimi, "orta əsrlər nəsrində müəlliflər yeri gəldikcə məqsədə müvafiq olaraq, öz əsərlərinə ərəb və fars poeziyalarından da müxtəlif şeir nümunələri daxil edirdilər. Bu, bir tərəfdən, onların əsərlərini daha cazibədar, daha oxunaqlı edir, əlavə bədii keyfiyyətlər əldə etməsinə səbəb olurdusa, digər tərəfdən, müəllifin savad dərəcəsini, onun ədəbi-bədii irsə bələdliyinin səviyyəsini də nümayiş etdirirdi" (1, s. 132). Göründüyü kimi, klassik şeirin orta çağ nəsrinin quruluşunda iştirakı təsadüfi xarakterli olmayıb, dövrün nəsr mədəniyyətinin bir göstəricisi və bədii düşüncənin bir elementidir.

"Əslində şeir formasının bir çox özəlliklərini özündə ehtiva edən qədim nəsr / inşa ənənəmiz, anlatmaya/bildirməyə dayanan bəsit bir mətn olmaqdan çıxaraq, bir sənət əsəri kimi görülməsi lazım gələn bir strukturdur" (10, s. 36).

Övliya Çələbinin *"Səyahətnamə"*sində yer alan mənzum parçaların elmi təhlilini verən Osman Horata həmin örnəkləri aşağıdakı şəkildə təsnif edir:

- Üslubu dərinləşdirmək və zənginləşdirmək məqsədi güdən, çıxarıldıqda bir itkiyə yol açmayacaq olan, poetik zinətlər olaraq xarakterizə oluna biləcək şeirlər (10, s. 38).
- Atalar sözü kimi əhvalatdan nəticə çıxarmağa yarayan, anladılan mövzunu daha əsaslı və aforistik bir ifadə ilə təkrarlayaraq, verilmək istənilən mesajın daha açıq və təsirli bir şəkildə anlaşılmasını asanlaşdıran şeirlər (10, s. 40).
- Bəhs edilən şəxs və ya hər hansı bir hadisə qarşısında müəllifin duyğu və düşüncələrinin daha dolğun və təsirli bir dillə anladılmasına yardımçı olan şeirlər (10, s. 41).

Bu bölgüyə daxil olan elementlər, demək olar ki, bütün orta çağ bədii nəsri üçün xarakterik olduğu kimi, türkcə mənsur hürufilik mətnlərində də bunun müəyyən təzahürlərinə rast gəlinir. Lakin mənsur hürufilik mətnləri ideya-məzmun baxımından yaxınlığa malik olsa da, mənzum parçaların istifadəsi müəllifin zövq, məqsəd və mütaliəsindən asılı olaraq, dəyişkən olmuşdur və bu barədə irəlidə daha təfərrüatlı bəhs edəcəyik.

Hürufilik mətnlərində mənzum iqtibasların spesifikası

Yuxarıda orta əsrlər bədii nəsrində mənzum parçalarla bağlı tədqiqatlarda söylənilən fikirləri icmal etməklə ümumi təsəvvür yaratmaq istədik. Mənsur hürufilik mətnlərində – risalələrdə ənənəyə bağlı poetik təzahürlər və fərqli xüsusiyyətlər əlaqəli şəkildə görünür. Belə ki, söylədiyi fikrə şeirlə zinət vermə farsca didaktik və bədii mətnin struktur ənənəsindən alınmışdısa, bədii

haşiyə xarakterli parçaların daha çox fəlsəfi-irfani düşüncəni və ya hürufilik ideyalarını ifadə edən şeirlərdən seçilməsi hürufilik mətnlərinin özünəməxsusluğudur.

Daha bir cəhəti də qeyd etməliyik ki, Osmanlı sahəsi türkcə mənsur hürufilik mətnlərini farsca eyni mövzulu risalələrlə qarşılaşdırdıqda birincilərin bir sıra fərqli özəlliklərə malik olduğu diqqətimizi çəkdi. Bu özünəməxsusluqlardan biri də türkcə mənsur hürufilik risalələrində mövzuya uyğun çox sayda mənzum iqtibaslar verilməsinin ön planda olmasında üzə çıxır. Burada daha bir cəhəti də xatırlatmalıyıq ki, bəhs olunan mövzuya lirik şeirlə zinət vermə türk bədii təfəkkürünün məhsullarında daha qabarıq görünür. Məsələn, farsca məsnəvilərdə lirik ricətlər, adətən, məsnəvi quruluşundan ayrılmadan edilir. Amma türkcə məsnəvilərdə lirik haşiyələr XIII əsrdən etibarən ənənə şəklini alır və məsnəvi şəklində yazılmış mətnə qəzəl, qəsidə, qitə, rübai, mürəbbe və s. ilə lirik ovqat qatılır. (bu barədə ətraflı məlumat üçün bax: 2, s. 9-10) Türkcə hürufilik risalələrində də türk bədii düşüncəsinin bu təzahürünü və türk oxucusunun bu zövqünə uyğunlaşmanı görürük.

İstər mənzum, istərsə də mənzum olsun, hürufilik mətnlərində müxtəlif şəkilli istinadlara yer verilir. Türkcə nəsrlə qələmə alınmış mətndə fikrinin davamı olaraq farsca şeirə müraciət edən hürufi müəlliflərin bu iqtibasların həm orijinalını, həm də tərcüməsini verməyə meylliliyi sıx müşahidə olunur. Onların bu tərcümələrində üslub fərqliliyi də maraq doğurur. Məsələn, farsca mənzum iqtibasın ardınca bəzən *"yəni"* kimi açıqlayıcı sözdən istifadə olunur və farsca şeir örnəyi türkcə nəsrlə də icmal olunur. Bu xüsusiyyət türkcə hürufilik mətnlərinin farscanı bilməyən zümrə üçün yazılması və təbliği xarakterli olmasından qaynaqlanır. Eyni zamanda farsca iqtibaslar türkcə risalə yazan hürufilərin farscanı bildiyini də üzə çıxarır. Ümumiyyətlə, ilkin qaynaqlar farsca olduğu üçün bu dilə mükəmməl bələdliyin əslində hürufi müəlliflər üçün bir zərurət olduğunu da qeyd etməliyik.

"Yəni ki" ifadəsindən sonra verilən tərcümələr hər zaman orijinal mətnə adekvat tərcümə olmayıb, bəzən şərh xarakterlidir. Bir nümunəyə nəzər salaq:

"چار صد سال دیگر خاصان ما
ملک بیگانه دهند با آشنا

Mənası bir vəchlə budur, yəni ki, الر-nın sirri bilindiyi gün zühuri-Həqdir" (15, s. 293).

Beytin hərfi tərcüməsi tərtibçi tərəfindən bu şəkildə verilmişdir: *"Digər dörd yüz il bizim xas dairəmizin insanları aşinalarımıza biganəlik mülkünü verirlər"* (15, s. 293). Əslində isə beytin anlamı belədir: "*Daha dörd il bizim seçilmişlərimiz yad (bir) aləmi dostlara verirlər*". Mətndə "yad aləm" (*"aləm-e biganə"*) ifadəsi ilə geniş kütləyə bəlli olmayan hürufilik dünyası nəzərdə tutulur.

Hürufilik mətnlərində qabarıq nəzərə çarpan farsca şeirin orijinalından sonra nəsrlə tərcüməsinin verilməsi ənənəsinə sonrakı dövrlərdəki mənsur əsərlərdə də rast gəlinir. Buna nümunə olaraq, XVII əsr Səfəvi dövrü abidələrindən olan *"Şeyx Səfi mənaqibi"*ndə də şeirlərin əvvəlcə farsca orijinalının, sonra isə nəsrlə tərcüməsinin verilməsini (bu barədə bax: 3, s. 45) göstərə bilərik. Çox güman ki, bu üslub hürufilərin nəsr yaradıcılığı ənənəsinin davamıdır.

Hürufilik risalələrindəki poetik iqtibaslar digər orta əsrlər mətnlərdə yer alan beytlərdən bəzən fərqli biçimdədir: bir sitat kimi istifadə olunan bu poetik örnəklər qəsidə və ya qəzəlin bir parçası, yaxud rübai olmaqla yanaşı, bir sıra hallarda məsnəvilərin böyük hissəsidir.

Daha bir fərqli xüsusiyyət kimi hürufilik mətnlərində bəzən eyni bir beytə iki (15, s. 286) və ya üç dəfə (15, s. 307, 309, 311) istinad olunmasını qeyd edə bilərik. Bu kimi istinadlarla müəllif əslində həmin beytləri müxtəlif bucaqlardan şərh etmək niyyətini izləyir və bunu dolayısı ilə həmin beytlərin şərhindəki fərqlilik təsdiqləyir.

Burada hürufilik mətnlərində iqtibasların yalnız mənsur əsərlərin özəlliyi olmadığını da qeyd etməliyik. Belə ki, bir sıra hürufi şair mənzum mətnlərində mənsur hürufi risalələrindən iqtibas

lara da yer vermişdirlər. Bunun bir örnəyi Nəsiminin Anadolu və Balkan ölkələrində hürufiliyi təbliğ edən xəlifələrindən olan Rəfiinin *"Bəşarətnamə"*si sayıla bilər. *"Bəşarətnamə"*də mənsur hürufilik mətnlərindəki təzahürlərin əksini görürük. Belə ki, burada nəsrlə yazılmış hürufilik risalələrindən müəyyən parçalar nəzmə çəkilərək, məsnəvinin tərkib hissəsinə çevrilmişdir.

Şair özü Fəzlullahın hürufilərin nəzərində çox önəmli olan üç farsca əsərindən tərcümə-iqtibaslara yer verdiyini aşağıdakı şəkildə ifadə edir:

"Ərşnamə" sözlərindən bunda var,
Tərcümə qıldım ki, qala yadigar.
Bir neçə beyti türki yazmışam,
Şöylə sanmağıl ki, yoldan azmışam.
Anladım çün tərcümə olasını,
Neçələr anınla yol bulasını.
..."Cavidannamə" sözüdür əksəri,
Fəhm edən olur cahanın minbəri.
Həm "Məhəbbətnamə"dən yazdım kəlam,
Üç kitabından haqqın oldu tamam. (17, v. 29)

Göründüyü kimi, Rəfii özü əsərini Fəzlullahın üç kitabından seçmə tərcümə olaraq dəyərləndirir. Yuxarıdakı beytlərdə deyilənlər Rəfiinin Fəzlullahın hər üç əsərindən bəhrələnməsi və həmin əsərlərdən əxz etdiklərini türkcədə əslinə yaxın – tərcümə olaraq dilə gətirməsi qənaətini yaradır. Zənnimizcə, müasir tərcümə anlayışına tam cavab verməyən, əslində Fəzlullaha sıx istinadla yaranıb formalaşan həmin əsər bu günün "tərcümə" anlayışı baxımından ancaq şərti anlamda tərcümə sayıla bilər. (ətraflı bax: 7, s. 17-18)

Ümumiyyətlə, orta çağ və hürufilik mətnlərində tərcümə təsəvvürü fərqli olmuşdur. H.H.Ballının doğru müşahidə etdiyi kimi, Fəriştəoğlunun *"Hidayətnamə"* risaləsi cəmi 20 vərəq, *"Məhəbbətnamə"* isə 125 vərəqdir (9, s. 71). Bu mənada *"Hidayətnamə"*də Fəzlullaha istinadən söylənilənlərin əslinə uyğun çevrildiyi, əsərdə tərcümə elementlərinin varlığını, bunların iqtibas xarakterli olduğunu, amma əsəri tamamilə tərcümə hesab etmənin mümkünsüzlüyünü qeyd etməliyik.

Tədqiqatçı F.Usluerə görə, Rəfii praqmatist (faydalanmaqla edilən) tərcümə örnəyi olan *"Bəşarətnamə"*sində eynilə Fəriştəoğlunun etdiyi kimi Fəzlullahın əsərlərindən ən əsas mövzuları əhatə edəcək şəkildə fraqmentar (qismi) tərcümələr etmiş və bu tərcümələrdə ixtiyari şəkildə hərəkət etmişdir. Rəfinin bu tərcümə tərzi hürufiliyin fundamental mövzularını seçib bunların əsaslarını anlatmaq istəyindən irəli gəlirdi. (bax: 14, s. 367)

Burada bir cəhəti də vurğulamaq istərdik ki, türkcə mənsur risalələrdə farsca iqtibasların orijinalından sonra tərcümə və ya şərhi verildiyi halda, türkcə mənzum mətndə risalələrdən iqtibaslar yalnız tərcümə şəklində yer alırdı. Bunun örnəkləri Rəfiinin *"Bəşarətnamə"*sində çoxluq təşkil edir.

Mənzum iqtibasların qaynağı və seçiminin səbəbləri

Araşdırmaya cəlb etdiyimiz türkcə orijinal və tərcümə əsərlərdə (*"Eşqnamə", "Hidayətnamə", "Səadətnamə", "Müqəddimətül-həqayiq", "Kəşfnamə", "Etiqadnamə", "Miftahül-qeyb"* və s.) mənzum iqtibaslar, ümumiyyətlə, hürufiliyin böyüklərindən – Fəzlullah, Əliyyül-Əla (Əmir Əli, Əmir Həzrətləri, Əmir Seyid Əli), Seyid Nəsimi, Həzrət Bibi Ümmül-Kitab, Şeyx Əbülhəsən, Rəfii, Mühiti, Misali, Yəmini və digər şairlərdəndir. Adətən, bu iqtibaslardan hər birinin müəllifi və ya alındığı əsər açıq şəkildə bildirilir. Amma bu mətnlərdə də bir sıra istisnalar mövcuddur və şeirə müraciətlər eynitipli deyildir. Məsələn, *"Kəşfnamə"*də bəzən beytin nə müəllifi, nə də tərcüməsi verilməmişdir (bax: 15, s. 276[1], 279[2]).

[1] Bu beytdə ad çəkilmir. Amma mətndən müəllif olaraq Fəzlullahın nəzərdə tutulması məlum olur.
[2] Beytin yer aldığı mətndən onun *"Ərşnamə"*dən iqtibas olunması qənaəti hasil olur.

Digər bir istisna kimi Nəsiminin *"Müqəddimətül-həqayiq"*ində heç bir poetik parçaya, hətta öz şeirinə belə birbaşa istinada yer verilmədiyini göstərə bilərik. Ancaq bəzi məqamlarda onun öz şeirini nəsrə çevirməsi nəzərə çarpır. Bir nümunəyə nəzər salaq:

"Əgər sail sual eyləsə ki, sən eydirsin ki, sifat zatın eynidir" (15, s. 65).

Müqayisə üçün qeyd edək ki, o, türkcə divanındakı şeirlərində eyni ideyanı aşağıdakı şəkildə nəzmə çəkmişdir:

Həq əyan oldu sənə, ey məzhəri-zatü sifat,
Kənzi-məxfi aşikar olduvü həm yövmül-hesab. (4, s. 21)

Möhbətimiz sifati çün zati-qədimi-fərd imiş,
Vahidi-bizəvalədir mərcə ilə süudumuz. (4, s. 80)

Camalındır həqqin zatü sifatı,
Müənbərdir boyun qədrü bəratı. (4, s. 111)

Qeyd etməliyik ki, Nəsiminin hələlik nəşr edilən və ara-sıra tədqiqata cəlb olunan məlum mənsur əsəri *"Müqəddimətül-həqayiq"*dir. Əsərin müəllifinin Nəsimi olub-olmaması ətrafında araşdırmalarda bəzi tərəddüdlü və şübhə ifadə edən mülahizələrə rast gəlinsə də, onun Nəsimiyə aidiyyətini təsdiqləyən bir neçə fakt məlumdur:

- Nəsiminin özü farsca bir qəsidəsində nəzm və nəsrlə yazdığını ifadə edir:

مرا ز فضل الهی است دیده روشن
مرا ز نطق الهی زبان بود گویا

به مدحت ولی الله، به ذکر حی قدیم
به نظم و نثر مزین چو لولو لالا. (18, s. 302)

(Mənim gözümün nuru ilahinin fəzlindəndir,
Mənim dilim ilahinin nitqindən Allahın vəlisinin (Hz. Əli nəzərdə tutulur. - S.Ş.) *mədhində (və) Heyyü Qədim olan Allahın zikrində söz söyləyən olub,*
Parlaq inci kimi nəzm və nəsrlə bəzənmişdir).

- Hürufi şairin xəlifəsi olan Rəfii *"Bəşarətnamə"* adlı məsnəvisində onun nəzm və nəsr sahəsində əsərləri olduğunu bildirir:

Nəzm(ü) nəsrindən bizə verdin xəbər,
Bu işarət əqli olana yetər. (17, v. 29)

- Mütəfəkkirin nəsr əsərində özünün şeirinə saillin[3] dili ilə dolayısı ilə istinadı bu əsərin müəllifinin Nəsimidən başqası ola bilməyəcəyi təsəvvürünü yaradır.

Göründüyü kimi, Nəsiminin mənsur əsərində yer alan nəşrləşdirilmiş kiçik bir şeir parçası da müxtəlif funksiyalar daşıyır və şairin nəzm və nəsr yaradıcılığı arasında körpü quraraq, onun hər iki üslubda əsər sahibi olmasını təsdiqləmək üçün fakt dəyərindədir. Bundan başqa, yuxarıdakı paralelliklər şairin nəsr əsərində öz şeirinə mənsur istinadı və türkcə hürufilik risalələrində şeirə müraciətin daha bir fərqli təzahürü kimi maraq doğurur.

Hürufilik mətnlərində müəllif şeirləri

Hürufi müəlliflərdən bir qismi şair olduğu üçün bəzən mənsur mətnin içində öz şeirinə də yer verirdi. Bu ənənəyə təkcə hürufiliyin türkcə mənsur nümunələrində deyil, ümumiyyətlə, orta əsrlərin digər dini-fəlsəfi, dini-bədii və s. səciyyəli əsərlərində də rast gəlinir. Məsələn, tanınmış

[3] İfadə "soruşan" anlamındadır.

tədqiqatçı alim M.Nağısoylunun yazdığı kimi, Füzulinin *"Hədiqətüs-süəda"*sındakı şeir parçaları şairin öz qələminin məhsuludur (3, s. 39). "Kaşifi nəsrlə yazdığı əsərində yeri gəldikcə mənzum parçalardan da istifadə etmişdir ki, Füzuli onların yerinə öz orijinal şeirlərini işlətmişdir" (3, s. 39).

Məşhur hürufi müəlliflərdən biri olan Virani Babanın risaləsində yer alan istər türkcə, istərsə də farsca mənzum parçaların[4] müəllifi qeyd olunmur. Əsasən, fəlsəfi məzmunlu olan və bədii özəlliklər baxımından bəzi nöqsanları olan həmin parçaların elə risalə müəllifinin özünə aid ola biləcəyini ehtimal edirik. Çünki müəllif mənsur mətnin içərisində fəlsəfi məzmunlu tam qəzəllərə də yer verir ki, onların məqtə beytində Viraninin adı çəkilir. Virani tam şeirə keçiddən öncə çox zaman *"şeir"* deyə aşıqlayıcı və keçid xarakterli sözlə şeirlərinin tam mətnini verir. Mətn boyu yalnız bir şeirin istisna təşkil etdiyini gördük. Orada şeirin tam mətnindən öncə *"şeir"* deyil, *"beyt"* sözündən istifadə edilmişdir. (bax: 15, s. 178) Azsaylı beytlərdən öncə bəzən *"beyt"*, bəzən isə *"şeir"* sözü verilmişdir.

Virani bu risaləsində təkcə özünə deyil, bir sıra hallarda digər müəlliflərin də şeirinə müraciət edir. Onun Yəmininin *"Fəzilətnamə"*sindən türkcə iki beyt, hz. Əliyə aid kimi təqdim etdiyi və ayrı-ayılıqda verdiyi farsca iki beytə istinadı (15, s. 170, 174-175) təsadüf nəticəsi sayıla bilməz, bu, müəllifin məzhəbi və təriqət mənsubiyyəti ilə bağlı bir seçimdir.

Mənzum və mənsur mətnlərin əlaqələndilmə üsulları

Hürufilik risalələrində mənsur mətnlə mənzum parça arasında bir sərhəd, hüdud funksiyasını oynayan kəlmələrdən istifadə edilir: *"beyt", "şeir"* və *"qövluhu"*. Türkcə mənsur hürufilik mətnlərində *"şeir"* və *"beyt"* kəlmələri asanlıqla biri digərinin yerində işlənə bildiyi halda, *"Qövluhu"* ("Onun sözüdür") kəlməsindən, adətən, Fəzlullah və bəzi hallarda Nəsiminin kəlamına keçmək üçün istifadə olunur. Çox ehtimal ki, müəllif *"qövluhu"* sözünü *"şeir"* və ya *"beyt"* sözlərindən ayırarkən istinad etdiyi şəxsin sözünü bəşərə aid kəlmə deyil, ilahi bir kəlam olaraq nəzərdə tutmuşdur. Örnək olaraq, *"Kəşfnamə"* əsərini göstərə bilərik. Burada *"Sahibi-təvil vəl-bəyan"* deyə Fəzlullahdan bəhs olunduqdan sonra *"qövluhu cəllə və alə beyt"* ifadəsi verilir:

سی و دو نور خدا یک نور بود

آنکه در مظهری خود را نمود. (15, s. 316-317)

(O, bir məzhərdə özünü göstərəndə Allahın otuz iki nuru bir nur olur),

- beytinə istinad edilir. Bəzən müəllif *"həzrət"* və *"qövluhu"* kəlməsindən istifadə ilə istinadın Fəzlullah və onun əsərinə edilməsinə fikri yönəldir (15, s. 283).

Mənzum parçalara daha artıq yer verməsi ilə digərlərindən seçilən *"Etiqadnamə"*də *"Sahibi-bəyan"*, *"Həzrət"*, *"Sahibi-təvil"* deyə Fəzlullah yad olunduqdan sonra *"qövluhu"*, *"beyt"* sözlərindən sonra farsca bir mənzum örnək verilir (15, s. 325). Ümumiyyətlə, anonim *"Etiqadnamə"*də şeir qisminə keçiddə müəllif müxtəlif əlaqələndirici və yardımçı ifadələrdən istifadə edir: *"qövluhu"* (15, s. 330, 332, 335), *"bir yerdə buyurmuşdur"* (15, s. 326), *"kəlami-təvildə dəxi gəlmişdir"*, *"nitəkim buyurmuşlardır"* (15, s. 327), *"nitəkim buyurmuşdur"* (15, s. 345), *"Həzrət "Ərşnameyi-ilahi"də buyurmuşdur"* (15, s. 330, 333), *"kəmə qalə"* (15, s. 341), *"Həzrət "Ərşnamə"də buyurmuşdur", "Həzrət buyurur"* (15, s. 343), *"Həzrət... bəyan etmişdir"* (15, s. 345).

Bu risalədə Fəzlullahın təkcə hürufilik görüşlərini ifadə edən əsərlərinə deyil, hürufilikdən artıq təsəvvüfi məzmunlu olan divanına da istinad edilmişdir: *"Sahibi-təvili-həqiqi əşarında buyurmuşdur"* (15, s. 342).

Müəllifin eyni tərzdə rəğbətini Fəzlullahın seçilmiş xəlifələrindən olan Əliyyül-Əla və Seyid Nəsiminın şeirlərinə keçiddən öncəki ifadələrində də görürük: *"Hz. Əmir Əli "Qiyamətnamə"də buyurmuşdur"* (15, s. 334) *"Qiyamət-namə"də buyurmuşdur ki..."*[5] (15, s. 339), "*Əmir Seyid*

---

[4] Bu poetik parçalar bir və ya iki beytdən təşkil olunmuşdur.

[5] Hürufilik mətnlərindən *"Kəşfnamə"*də Əliyyül-Əlanın *"Kürsinamə"*sinə (mətndə: *"Kürsi"*) (15, s. 296), *"Etiqadnamə"*də isə onun *"Məhşərnamə"*sinə (15, s. 339) də istinad olunur.

Nəsimi buyurmuşdur" (15, s. 347). Amma o, Rəfiinin *"Bəşarətnamə"*sindən istinada da (15, s. 329), öz şerindən fraqmentə də *"beyt"* deyə keçid edir (15, s. 345).

Ümumiyyətlə, lirik biçimli parçaya *"beyt"* sözü ilə keçilməsi, bu sözün şeirə keçidi nəzərə çarpdıran ədəbi bir vasitə kimi istifadəsi orta çağın müxtəlif üslublu əsərlərinin spesifik xüsusiyyətlərindəndir və təkcə hürufilik mətnlərində müşahidə olunan özəllik deyildir. Amma həmin ifadənin işlənmə məqamları baxımından hürufilik mətnlərində fərqlilik görünür. Belə ki, "beyt" ifadəsindən sonra verilən şeir parçası hər zaman bir beytdən ibarət olmur və istinad olunan poetik mətn bir neçə beytlik bir parçanı da ehtiva edə bilir. Məsələn, *"Hidayətnamə"*də müəllif bir yerdə Fəzlullahdan 8 beytlik, digər bir yerdə isə 13 beytlik məsnəvi tərzində yazılmış bir parçanı nümunə olaraq göstərir. Bu mənzum parçalar çox zaman Fəzlullahın *"Ərşnamə"*sindən sitat olaraq verilir. Göründüyü kimi, həmin mənzum iqtibaslar mətni zinətləndirən bir ədəbi fənd və poetik üslubi özəllik olmaqdan artıq, fəlsəfi arqument rolunu oynayır.

Orta çağın ədəbi-fəlsəfi qaynaqlarında Nəsimiyə istinadlar

Hürufilik ədəbiyyatının ən parlaq, çox istedadlı, şairlik ilhamı və təxəyyülünün zənginliyi ilə seçilən nümayəndəsi, məlum olduğu kimi, Seyid İmadəddin Nəsimidir. Onun poetik-fəlsəfi mirasının qabarıq izləri təkcə hürufi divan ədəbiyyatında deyil, həmçinin risalələrdə də müşahidə olunur. Nəsiminin şeirinə hürufi müəlliflərin istinadında onun sözü və şəxsiyyətinə rəğbət və ehtiram açıq bir biçimdə ifadəsini tapmışdır.

Qeyd etməliyik ki, türkcə tərcümə və ya orijinal əsər olmasından asılı olmayaraq, hürufilik mətnlərində şeirlər əslinə uyğun biçimdə yer alır. Bu xüsusiyyət Osmanlı sahəsində farsca yazıya alınmış hürufilik risalələrində türkcə iqtibaslara yer verilməsində də nəzərə çarpır. Məsələn, *"Cavidannamə"*nin şərhli nüsxələrindən birində farsca mətnin içində Nəsiminin türkcə bir beytinə istinad verilir:

"چنانک ح سید رحمة الله علیه فرموده اند

(Tərcüməsi: Hz.[6] Seyid – Allah ona rəhmət eləsin – buyurduğu kimi)

Lütfü qəhrin illəti mənidə vahiddir, vəli
Bilmədi şeytan bu tövhidi, əhəddən düşdü dur". (11, s. 102)

Maraqlıdır ki, hürufilik mətnlərində Nəsimidən verilən iqtibaslar, əsasən, hürufilik deyil, irfani məzmunludur.

Bu cəhəti də vurğulamaq istərdik ki, bəzi orta çağ qaynaqlarında Nəsimidən iqtibas edilən farsca və ya türkcə şeirin həmin mənbədəki şəklinə onun divanlarının müasir elmi-tənqidi mətnlərində rast gəlmirik və ya həmin mətn müəyyən leksik fərqlərə malik olur. Bənzər durum Şərafəddin Raminin *"Ənisül-üşşaq"* əsəri və Qayğusuz Abdalın bir əlifnaməsində Nəsimi şeirindən verilən iqtibaslarda da görünür. Bu ayrılıqlar müəllifin həmin şeir parçalarını yaddaşına əsasən yazdığının və əsərini qələmə alarkən həmin mətnin yazılı şəklinə müraciət etməməsinin də nəticəsi ola bilər. Və yaxud Nəsiminin həmin şeirinin başqa bir variantı onun çağdaşları Şərafəddin Rami və Qayğusuz Abdalın əlində ola bilərdi.

Ümumiyyətlə, orta əsrlər nəsrində istinad olunan şeir parçalarının bəzi fərqliliklərə malik olması nadir hallardan deyildir. Analoji vəziyyət *"Munisnamə"* və *"Bəxtiyarnamə"*lərin mətnlərində də müşahidə olunur. (bu barədə ətraflı məlumat üçün bax: 1, 132-134; 5, s. 18-19)

Şərafəddin Raminin nümunə kimi göstərdiyi aşağıdakı beytin Nəsimiyə aidiyyəti İranda nəşr edilən farsca mətnin nə orijinalında, nə də həmin mətnin tərtibçisinin qeydlərində bildirilmir. (bax: 19, s. 64) Amma tədqiqatçı alim N.Məmmədlinin AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan beş əlyazmasının müqayisəsi əsasında tərcümə etdiyi mətndə

[6] Mətndə hürufiliyin hərf simvolikasına uyğun olaraq *"həzrət"* sözü ixtisarla verilmişdir.

daha mötəbər nüsxəyə istinadən beytin İmadi-Hürufiyə mənsub olduğu qeydi verilmişdir[7] (6, s. 105). İmadi-Hürufinin Seyid Nəsimi olması isə şübhədən kənardır. Həmin beyt aşağıdaki kimidir:

اسرار تو عشاق تو دانند کماهی
کان خال نه خالیست که سریست الهی. (6, s. 105)

(Sənin sirlərini sənin aşiqlərin bilir,
Bu xal xal deyil ki, ilahi sirdir).

Bunu da bildirməliyik ki, İmadi-Hürufiyə aid olunan iki beytin dil-üslub xüsusiyyətləri baxımından Nəsimiyə aidiyyəti tərəddüdə əsas verməsə də, farsca divanın çap variantlarında bu beytlərə rast gəlmədik.

Qayğusuz Abdalın əlifnaməsində Nəsimi şeirindən verdiyi sitat-beytlə də bağlı eyni fikirləri söyləmək mümkündür. Əlifnamədə deyilir: *"Nitəkim "ya"nun iki nöqtəsi biri əvvəl, biri axirdür. Nitəkim həzrəti-Nəsimi Sultan buyurur:*

Ey Nəsimi, kimsə bilməz bu müəmma sirrini,
İki nöqtə, üç hüruf, dörd kitab andan çıxar.

Yəni iki nöqteyi-"ya"nun biri ol ruhdur ki, İmam Əlidür və biri axirdür ki, nöqteyi-cəsəddür ki, Məhəmməd əleyhissəlamdur. "Üç" üç hərfdən muraddur ki, "ayn", "lam", "ya"dur. Yəni "ayn"dan gəlürüz, "lam"da gəldik, "ya"da gedərüz (12).

Nəsimiyə aid edilən və hürufilik baxımından şərhi verilən bu beytə də müasir nəşrlərdə rast gəlmədik.

Bunu da qeyd etməliyik ki, Qayğusuz Abdalın istinad şəklini, yəni Nəsimiyə yüksək epitetlər aid edərək, rəğbətini bildirdikdən sonra onun şeirinə keçmə üsulunu təzkirələr və şairə yazılmış bəzi təxmislərdə də görə bilirik. Məsələn, Üsuli Nəsimiyə yazdığı təxmisə bu misralarla yekun vurur:

Ey Üsuli, rəmzi-ma övhayi bilməz hər ləim,
Kim kəlamüllah sirri anlamaz divi-rəcim,
Xoş buyurmuşdur sipehsaları-rahi-müstəqim
Elmi-hikmətdən bilirsən, gəl bəri, gəl, ey həkim,
Sən Nəsiminin məntiqindən dinlə, Fəzlullahı gör. (16, s. 91)

Amma hürufilik mətnlərində Nəsimiyə istinadlar daha dəqiq ifadəsi ilə diqqəti cəlb edir. Bunun bir nümunəsini farsca mətndə Nəsimidən gətirilən iqtibasda görmüşdük. Digər nümunələr olaraq, türkcə mənsur mətndə (*"Etiqadnamə"*) hürufi şairə istinadı göstərə bilərik:

"Və Əmir Seyyid Nəsimi gibi ol dəxi sonra nədamət ərz edüb buyurmuşdur. Qövluhu:

Eşq əhlindən, gəl, şərabi-səlsəbili-kövsər iç,
Gec bu meydən kim, çəkərsən ertə şərrindən[8] xumar.[9]

Məsti-dərgahum, nə məstəm, bu şərabü cüzidən
Sanma, ey xacə, məni kim, olmuşam bikar məst." (15, s. 363)

---

[7] Mətnin türkcəyə tərcüməsində bu beyt Raminin adına verilmişdir (13, s. 45).
[8] H.Ayan nəşrində: *"rəncindən"* (8, s. 313).
[9] Hürufi müəllif bu beytləri, eləcə də daha öncə Əliyyül-Əladan gətirdiyi beyti hürufilikdə şərab içilməsinə icazə olmadığı və bunu peyğəmbərin şəriətinə uyğun olmadığını bildiklərinə dəlil olaraq göstərir.

Eyni mətndən digər bir nümunəyə nəzər salaq:
"*Əmir Seyyid Nəsimi buyurmuşdur:*

Külli-yer gök Həqq oldı mütləq,
Söylər dəfü cəngü ney ənəlhəq". (15, s. 347)

Bu beytlərin hər biri müasir nəşrlərdə də eyni biçimdə verilmişdir.

Nəticə

Sonda bunu da qeyd edə bilərik ki, hürufilik mətnlərində iqtibaslar digər orta çağ ədəbi və ya fəlsəfi əsərlərinə nisbətən çoxluq təşkil edir. Bunun iki mühüm səbəbi vardır: birincisi, bu təlimin nəzəri-fəlsəfi əsası Quran və hədislərin şərhi üzərində qurulmuşdur. İkincisi, bu təlim təbliği-təlqini xarakterlidir. Hürufilik mətnlərində Quran və hədislərdən sıx-sıx istifadəyə meylin qabarıq görünməsi müəlliflərin təkcə fikrini dini-elmi zəminlə möhkəmləndirmək niyyəti ilə bağlı deyildir, onlar həm də həmin iqtibas-ayələrə şərh vermək məqsədini izləyirdilər. Yəni bu əsərlərdə təkcə iqtibaslar vasitəsilə sözünə daha mötəbər bir dayaq tapmaq kimi islami qaynaqların ənənəsindən təsirlənilməmişdir, Quran və hədislərdən həmin iqtibaslar və onların şərhi hürufi mətnlərinin yazılma səbəbidir.

Ümumiyyətlə, hürufilik ədəbiyyatı iqtibasların rəngarəngliyi, bu istinadlarda müəllif məqsədinin çeşidliliyi ilə digər orta çağ əsərlərindən fərqlənir. Bu çoxsaylı istinad və iqtibaslar müxtəlif üslublu əsərlər arasında əlaqə qurulması və müxtəlif hürufi müəlliflərin düşüncəsini vahid axara salaraq, fikri bağ qurulmasında da müstəsna bir yerə malikdir.

Hürufilik mətnlərinin daha bir özəlliyi hürufi şairlərin əsərlərinə müraciətin ön planda olmasıdır. İstər mənzum, istərsə də mənsur olsun, hürufilik mətnlərində müxtəlif şəkilli istinadlara sıx-sıx yer verilmişdir. Haşiyəli konstruksiyaya malik orta çağ məhəbbət dastanlarını – məsnəviləri xatırladan risalələrdə mənzum parçaların iqtibas səciyyəli istifadəsi çeşidli məqsədlərə xidmət etmişdir. Həmin mətnlərdə yer alan beyt və şeirlər, əsasən, əxlaqi, fəlsəfi və hürufilik məzmunludur. Bununla belə, həmin iqtibaslar hürufilik mətnlərinə bir canlılıq və ifadə rəngarəngliyi gətirmişdir.

Poetik haşiyə xarakterli bu şeirlər əsasında hürufi müəlliflərin risalələrinin ədəbi özəlliklərini dəyərləndirmək, farsca mənzum mətnin türkcə risalələrdəki yeri, funksiyası və məqsədini, türkcə hürufilik mətnlərinin bu kontekstdə ənənəvi və fərdi cəhətlərini müəyyənləşdirmək mümkündür.

Ədəbiyyat:

Azərbaycan dilində:

1. Həvilqızı K. XIII əsr farsdilli nəsri və Dəqaiqinin "Bəxtiyarnamə" əsəri. Bakı: MBM, 2009.
2. Mirzəyev A. Azərbaycan epik şeirinin təşəkkül dövrü. Bakı: Elm və təhsil, 2016.
3. Nağısoylu M. Orta əsrlərdə Azərbaycanda tərcümə sənəti. Bakı: Elm, 2000.
4. Nəsimi, İmadəddin. Seçilmiş əsərləri. Tərtib edəni: Həmid Araslı. Bakı: Azərnəşr, 1973.
5. Rzayeva R. Əbubəkr ibn Xosrov əl-Ustadın "Munisnamə" əsəri. Bakı: Papirus-NP, 2016.
6. Şərəfəddin Rami Təbrizi. Ənisül-üşşaq. Müqayisəli mətni tərcümə edən və nəşrə hazırlayan: Nəzakət Məmmədli, Bakı: Elm və təhsil, 2012.
7. Şıxıyeva S. Azərbaycan şeirinin qərib səhifələri // Ədəbiyyat qəzeti, 2018, 7 aprel, s.17-18.

Türk dilində:

8. Ayan H. Nesimi. Hayatı, Edebi Kişiliği, Eserleri ve Türkçe Divanının Tenkitli Metni, I. Cilt. Ankara: Türk Dil Kurumu Yayınları, 2002.
9. Ballı H.H. Hurufiliğin Doğuşu ve Fazlullah Hurufi. İstanbul: Hikmetevi Yayınları, 2013.

10. Horata O. Evliya Çelebi Seyahatnâmesi'ndeki Manzum Kisimlar // Türk Bilig, 2002/3, s. 34-44. (http://dergipark.gov.tr/download/article-file/142953)
11. Hurufilik Metinleri Katalogu. Hazırlayan: Abdülbaki Gölpınarlı. Ankara: Türk Tarih Kurumu Basımevi, 1989.
12. Kaygusuz Abdalın Elifnamesi (https://www.researchgate.net/publication/294580401)
13. Rami, Şerafettin. Enisü'l-Uşşak (Klasik Doğu Edebiyatlarında Sevgiliyle İlgili Mazmunlar). Ankara: Ecdâd Yayınları, 1994
14. Usluer F. Farsçadan Türkçeye Hurûfi Metin Tercümeleri // Eski Türk Edebiyatı Çalışmaları - Metnin Halleri: Osmanlı'da Telif, Tercüme ve Şerh, İstanbul: Klasik Yayınları, 2014.
15. Usluer F. Hurufi Metinleri, 1. Ankara: Birleşik Kitabevi, 2014.
16. Usuli. Divan. Hazırlayan: Mustafa İsen, Ankara: Akçağ Yayınları, 1990.

Fars dilində:

17. رفعی. بشارتنامه. کتابخانه و موزه ملی ملک استان قدس رضوی ، شماره 4598
18. زندگی و اشعار عمادالدین نسیمی، به کوشش یدالله جلالی پنداری، تهران: نشر نی، 1993.
19. شرف الدین محمد بن حسن رامی. انیس العشاق. به اهتمام محسن کیانی (میرا)، تهران: انتشارت روزنه، 1376